| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 27.12.2001 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 242-IIQ |
| **ADI** | Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2002, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 10) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 220.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması tədbirlərinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

I fəsil
**ÜMUMI MÜDDƏALAR**

M a d d ə 1 . **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:
1.0.1. **yod çatışmazlığı xəstəlikləri** - orqanizmdə yod çatışmazlığı nəticəsində qalxanabənzər vəzin funksiyalarının pozulması ilə əlaqədar yaranan patoloji vəziyyət (beyin funksiyalarının pozulması, uşaqsalma, uşağın ölü doğulması, ağıl kəmliyi, kretinizm və s.);
1.0.2. **yod çatışmazlığı xəstəliklərinin profilaktikası** - yod çatışmazlığı xəstəliklərinin qarşısının alınmasına yönəldilmiş tədbirlər;
1.0.3. **duzun yodlaşdırılması** - yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə qida və yem üçün istifadə olunan duzun yodla zənginləşdirilməsi prosesi.

M a d d ə 2 . **Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, *"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan*, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.[1]

M a d d ə 3 . **Qanunun tətbiq dairəsi**

Bu Qanun Azərbaycan Respublikasında yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması sahəsində fəaliyyət göstərən bütün fiziki və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslərə şamil edilir.

M a d d ə 4 . **Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması sahəsində dövlətin vəzifələri**

4.0. Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması sahəsində dövlətin vəzifələri aşağıdakılardır:
4.0.1. yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası ilə bağlı məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;
4.0.2. əhali arasında yod çatışmazlığı xəstəliklərinin yayılma dərəcəsinin öyrənilməsi, qiymətləndirilməsi və proqnozlaşdırılması;
4.0.3. əhalinin yodlaşdırılmış duza tələbatının təmin edilməsi məqsədi ilə iqtisadi, hüquqi və təşkilatı tədbirlərin həyata keçirilməsi.

II fəsil
**Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması üzrə tədbirlər və yodlaşdırılmış duza tələblər**

M a d d ə 5 . **Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması üzrə tədbirlər**

5.0. Azərbaycan Respublikasında yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması sahəsində aşağıdakı tədbirlər həyata keçirilir:
5.0.1. əhalinin profilaktik müayinəsinin təşkili və yod çatışmazlığı olan xəstələrin aşkar edilməsi;
5.0.2. monitorinq məqsədi ilə ildə bir dəfə yod çatışmazlığı xəstəliklərinin dinamikasının və aparılan profilaktika tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi və nəticələri barədə əlaqədar orqanlara məlumat verilməsi;
5.0.3. yod çatışmazlığı xəstəliklərinin qarşısının alınmasına yönəldilmiş elmi tədqiqatların aparılmasının təşkili;
5.0.4. yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası tədbirləri haqqında əhalinin məlumatlandırılması və bu xəstəliklərin qarşısının alınması məsələlərinə dair sanitariya maarifinin mətbuat, radio, televiziya vasitəsi ilə təşkili, plakatların, bülletenlərin və s. nəşri;
*5.0.5. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə müvafiq olaraq yodlaşdırılmış duzun istehsalı, daşınması, saxlanması, qablaşdırılması, etiketləşdirmə və satış şərtlərini müəyyən edən*

*qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların məcburiliyi.*[2]

M a d d ə 6 . **Yod çatışmazlığı xəstəliklərinin profilaktikasına nəzarət**

6.1. Yod çatışmazlığı xəstəliklərinin profilaktikasına dövlət nəzarəti qanunvericilikdə müəyyən olunmuş qaydada öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

6.2. Yodlaşdırılmış duzun *minimum* keyfiyyət və təhlükəsizlik göstəricilərinin *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* uyğunluğunu müəyyən etmək məqsədi ilə duzdan götürülmüş nümunələrin ekspertizası müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.[3]

6.3. Yodlaşdırılmış duzun *minimum* keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* əməl olunmasına ictimai nəzarət qanunvericilikdə müəyyən olunmuş qaydada həyata keçirilir.

M a d d ə 7 . **Yodlaşdırılmış duza tələblər**

7.1. Qida və yem məqsədi ilə istifadə olunan duz yodlaşdırılmalı, onun *minimum* keyfiyyəti, təhlükəsizliyi, tərkibindəki yodun miqdarına nəzarət metodları müvafiq *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* uyğun olmalıdır. Duzun tərkibində yodun miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir.[4]

*7.2. Duzun istehsalı, daşınması, saxlanması, qablaşdırılması, etiketləşdirmə və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.*[5]

~~7.3. Azərbaycan Respublikasına idxal edilən və ya respublikada istehsal olunan yodlaşdırılmış duzun qablaşdırılması, etiketləşdirilməsi, saxlanması, daşınması və satışı müvafiq standartlara və tələblərə əməl edilməklə həyata keçirilir.~~[6]

7.4. Yararlılıq müddəti qurtarmış yodlaşdırılmış duzun istifadəsi, təkrar emalı və yenidən yodlaşdırılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

*Maddə 8. **Yodlaşdırılmış duzun istehsalı və idxalına dair tələblər***[7]

*8.1. Azərbaycan Respublikasında yodlaşdırılmış duzun istehsalçılarının fəaliyyəti qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsi məqsədi ilə yoxlanılır, məhsulları ekspertizadan keçirilir və həmin subyektlər qida təhlükəsizliyi qeydiyyatına alınır.*

*8.2. Azərbaycan Respublikasına idxal olunan yodlaşdırılmış duz müvafiq qaydada tanınmış və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan yodlaşdırılmış duzun istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda, həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur.*

*8.3. Yodlaşdırılmamış duzun qida və yem məqsədi ilə istehsalı, satışı və Azərbaycan Respublikasına idxalı qadağandır.*

*8.4. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında yodlaşdırılmış duz akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.*

M a d d ə 9 . **Yodlaşdırılmış duzun istehsalının stimullaşdırılması**

Əhalinin yodlaşdırılmış duza olan tələbatının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasında yodlaşdırılmış duzun istehsalı sahəsində məqsədli investisiya, qiymət, kredit və subsidiya siyasəti həyata keçirilir.

## III fəsil
## YEKUN MÜDDƏALARI

M a d d ə 1 0 . **Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunu pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

M a d d ə 1 1 . **Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında qanunvericiliyin pozulması nəticəsində vurulan zərərin ödənilməsi**

Yodlaşdırılmış duzun istehsalı və satışını həyata keçirən hüquqi və fiziki şəxslər yeyinti məhsullarının *minimum* keyfiyyət və təhlükəsizliyi sahəsində *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərini* pozduqda, insanların sağlamlığına vurduqları zərəri qanunvericilikdə müəyyən olunmuş qaydada ödəməyə borcludurlar.

M a d d ə 1 2 . **Qanunun qüvvəyə minməsi**

12.1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.
12.2. Bu Qanunun 8.3-cü maddəsi 2003-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 27 dekabr 2001-ci il
242-IIQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 2-ci maddəyə "**bu Qanundan**" sözlərindən sonra "**, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan**" sözləri əlavə edilmişdir.

[2] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 5.0.5-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5.0.5. Yodlaşdırılmış duzun istehsalı, idxalı və satışı sahəsində fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslər üçün yodlaşdırılmış duzun keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsində standartlara, sanitar-gigiyenik norma və qaydaların tələblərinə (bundan sonra standartlar və tələblər) əməl olunmasının məcburiliyi.~~

[3] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 6.2, 6.3 və 11-ci maddələrə ismin müvafiq hallarında "**keyfiyyət**" sözündən əvvəl "**minimum**" sözü əlavə edilmişdir, həmin maddələrdə ismin müvafiq hallarında "**standartlar və tələblər**" sözləri "**qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri**" sözləri ilə əvəz edilmişdir.

[4] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 7.1-ci maddənin birinci cümləsinə "**keyfiyyəti**" sözündən əvvəl "**minimum**" sözü əlavə edilmişdir və həmin cümlədə "**standartlara və tələblərə**" sözləri "**qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə**" sözləri ilə əvəz edilmişdir.

[5] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 7.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~7.2. Duzun təmizlənməsi, istehsalı, yodlaşdırılması və satışı sanitar-gigiyenik norma və qaydaların tələblərinə uyğun olaraq həyata keçirilir.~~

[6] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 7.3-cü maddə ləğv edilmişdir.

[7] 12 iyul 2019-cu il tarixli **1662-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 avqust 2019-cu il, 181 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 8, maddə 1383**) ilə 8-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 8 . **Yodlaşdırılmış duzun sertifikatlaşdırılması**~~

~~8.1. Yodlaşdırılmış duzun keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartlar və tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının ərazisində istehsal olunan yodlaşdırılmış duz qanunvericilikdə müəyyən olunmuş qaydada sertifikatlaşdırılır.~~

~~8.2. Duzun yodlaşdırılması və sertifikatlaşdırılması haqqında istehlakçılara qanunvericilikdə müəyyən olunmuş qaydada məlumat verilir.~~

~~8.3. Yodlaşdırılmamış duzun qida və yem məqsədi ilə istehsalı, satışı və Azərbaycan Respublikasına idxalı qadağandır.~~